1990-cı illərdə L.Petruşevskaya özünü ən müxtəlif janrlarda sınayır. Nəsr və dramaturgiya ilə yanaşı, o, verlibr üslubunda yazılan şeirlər və poemalar yaradır. O həmçinin nağıl janrına da müraciət edir. Yazıçı böyüklər və uşaqlar üçün xeyli nağıllar, hətta "kukla romanı" adlanan "Маленькая волшебница" nağılını yaratmışdır.

Bu gün L.S.Petruşevskaya müasir rus ədəbiyyatında layiqli yer tutur. Onun haqqında çox yazılır, əsərləri bir çox nüfuzlu mükafatlara layiq görülmüşdür: Tyopfer Fondunun Puşkin mükafatı (1991), "Novıy mir" (1995), "Oktyabr" (1993, 1996, 2000), "Znamya" (1996) jurnallarının mükafatları, "Moskva - Penne" (1996), "Zvezda"(1999) mükafatları, "Triumf" (2002) mükafatına, Rusiyanın Dövlət Mükafatı (2002) və b. Petruşevskayanın əsərləri nəinki vətənində, həm də xaricdə məşhurlaşmışdır. Onun əsərləri bir çox dillərə tərcümə olunmuş, pyesləri isə dünyanın müxtəlif ölkələrində - Qlazqo, Budapeşt, Paris və digər şəhərlərdə səhnələşdirilmiş və indi də səhnələşdirilir.

Nə barədə yazmasından, hansı janra müraciət etməsindən asılı olmayaraq L.Petruşevskayanın tamamilə özünəxas, digərlərinə bənzəməyən

mətn estetikası vardır. Onun əsərləri yazıçı fərdiliyini daha adekvat şəkildə ifadə etməyə imkan verən özünəməxsus poetikaya malikdir. Adətən L.Petruşevskayanın poetikası "gündəlik həyat poetikası" termini ilə müəyyən olunur. Düşünürük ki, bu, L.Petruşevskaya yaradıcılığının özünəməxsusluğunu əks etdirən ən dolğun ifadədir. Bu baxış bucağı altında nəzərdən keçirilən L.Petruşevskayanın poetikası bu qeyri-adi yazıçının yaradıcılığının tədqiqində bizə daha aktual görünür və bu da dissertasiya mövzusunun seçimini şərtləndirir.

**Dissertasiya mövzusunun işlənmə səviyyəsi.** L.Petruşevskayanın ayrı-ayrı əsərlərinə həsr olunmuş, həm Rusiya, həm də xaricdə nəşr olunmuş, yazıçının hərtərəfli yaradıcılığının ayrı-ayrı tərəfləri nəzərdən keçirilən geniş elmi-tənqidi ədəbiyyat mövcuddur. Bu ədəbiyyat ilk növbədə onun nəsrinə yazılan resenziya və rəylərdən ibarətdir. Bunlar S.Boçarov, X.Qoşilo, T.Davıdova, N.İvanova, B.Kuzminski, T.Markova, T.Proxorova, U.Rebel, M.Remizova, K.Rojdestvenskaya, O.Slavnikova və başqalarının məqalələridir. Petruşevskayanın dramaturgiyası haqqında M.Qromov, Q.Dyomin, M.Lipovetskiy, A.Smolyanski, M.Stroyeva, R.Timençik, M.Turovskaya, K.Simmons və başqaları yazmışlar.

Ümumən L.Petruşevskayanın yaradıcılıq yoluna həsr olunmuş xülasə şəkilli məqalələr də mövcuddur. Bunlar D.Bıkov, O.Lebeduşkina, D.Markova və başqalarının tədqiqatlarıdır. Bu tədqiqat işlərində yazıçının yaradıcılığında janr və üslub, qəhrəmanlar, bədii-ifadə vasitələri və s. problemlərin təhlilinə cəhd göstərilir. Son vaxtlar, demək olar, bütün sanballı müasir rus ədəbiyyatı üzrə tədqiqatlar və monoqrafiyalarda, dərslik və dərs vəsaitlərində L.Petruşevskayanın yaradıcılığına ayrıca fəsil ayrılır. L.Petruşevskaya yaradıcılığının ayrı-ayrı problemləri tədricən dissertasiya işlərinin predmetinə çevrilir. T.Markova, T.Proxorova, N.Kablukova, O.Kuzmenko, İ.Kutleminanın tədqiqat işlərində yazıçının dramaturgiyasının, nəsrinin, qissə tərzinin, kompozisiya və süjet xəttinin ayrı-ayrı hissələri araşdırılır.

Lakin hələ də kifayət qədər öyrənilməyən tərəf L.Petruşevskayanın gündəlik həyatın təkrarolunmaz dünyasını yaratmaq üsulları aspektində poetika problemidir. Bu, Petruşevskaya yaradıcılığında «gündəlik həyat poetikası» haqqında danışmağa imkan verir.

**Tədqiqatın predmeti** L.Petruşevskayanın yaradıcılığında gerçəkliyin bədii təzahür özünəməxsusluğu, onun nəsr və dramaturgiya poetikasının özəllikləridir.

**Tədqiqatın obyektini** L.Petruşevskayanın ilk növbədə dramaturji və nəsr əsərləri, həmçinin şeir janrında onun işləri, ədəbiyyat haqqında açıq çıxışları, müzahirələri, məqalələri və xatirələri təşkil edir. Tədqiqatın obyektinə yazıçı və dramaturqun yaradıcılığı üzrə tənqidi ədəbiyyat, L.Petruşevskayanın yaradıcılığının inkişaf etdiyi müasir rus ədəbiyyatı üzrə ümumiləşdirici işlər də aiddir.

**Dissertasiyanın məqsədi** L.S.Petruşevskayanın yaradıcılığını onun bədii dünyasının formayaradıcı tərkib hissəsi kimi istifadə olunan, həmçinin yazıçının yaradıcılıq tərzinin janr-üslub özünəməxsusluğunu şərtləndirən gündəlik həyat poetikası baxımından təhlil etməkdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- 1970-1990-cı illər rus ədəbiyyatının əsas inkişaf meyllərini dünyanın poetik mənimsənilməsi baxımından nəzərdən keçirmək.
- Yazıçının nəsr əsərlərini, onların poetik quruluş xüsusiliyini üzə çıxarmaq baxımından təhlil etmək, yazıçının hansı janr və üsluba üstünlük verdiyini müəyyən etmək.
- L.Petruşevskayanın dram əsərlərinin poetikasının özünəməxsusluğunu, onların müasir rus dramaturgiyasında yerini müəyyən etmək.
- L.Petruşevskayanın müasir ədəbi prosesdə yerini, onun müasir gerçəkliyi və müasir insanın bədii təzahür üsullarını müəyyən etmək.

**Tədqiqat metodları**. Ədəbi təhlil metodlarının seçimi tədqiq olunan materialın özəlliyi ilə şərtlənir. Tədqiqat işində müqayisə, təsviri və müqayisəli tipoloji təhlil metodlarından istifadə olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi** onunla müəyyən olunur ki, burada ilk dəfə müasir rus ədəbiyyatının parlaq nümayəndələrindən biri olan, birmənalı dəyərləndirilməyən L.S.Petruşevskayanın yaradıcılığının, onun poetikasının özünəməxsusluğu baxımından kompleks tədqiqinə cəhd edilir.

Müasir ədəbiyyatşünaslıqda yazıçının ayrı-ayrı əsərlərinə məqalələr, rəylər, onun dramaturgiyası və nəsrinin xülasəsi verilmişdir. Bu tədqiqatlarda L.S.Petruşevskayanın yaradıcılığına ikili yanaşma əks olunur. Lakin hələ də onun yaradıcılığının ümumi, xüsusi cəhətlərini, poetikasını tədqiq edən, yazıçının ətraf aləmi əks etdirərkən əsaslandığı yaradıcılıq prinsiplərinin nəzərdən keçirilə biləcəyi araşdırmalar yoxdur.

L.S.Petruşevskayanın yaradıcılığında geniş təqdim olunan və ədəbiyyatşünaslıqda bəhs edilən gündəlik həyat poetikası bu dissertasiyada

xüsusi tədqiqat predmetidir. Nasir və dramaturq L.S.Petruşevskayanın yaradıcılığına münasibətdə bu ifadənin düzgün olub olmamasını təsdiq və ya inkar etmək üçün dissertasiyada onun nəinki nəsr və dram əsərləri, həmçinin ibrətamiz hekayələr, böyüklər və uşaqlar üçün nağıllar, şeirləri təhlil olunmuşdur.

Yazıçının ədəbi-tənqidi fikirlərinə müraciət, onun ədəbiyyat və öz yaradıcılığı haqqında düşüncələrinin təhlili də yeni yanaşmadır.

**Tədqiqatın nəzəri bazası** rus ədəbiyyatı tarixi, müasir ədəbi proseslərin problemləri, həmçinin bədii əsərlərin nəzəriyyəsi və poetikası ilə məşğul olan tanınmış ədəbiyyatşünasların tədqiqatlarından ibarətdir.

Dissertasiyanın **nəzəri və praktik əhəmiyyəti** ondan ibarətdir ki, burada müasir rus ədəbiyyatında görkəmli yer tutan və yarıdıcılığı ətrafında indi də mübahisələr aparılan L.S.Petruşevskayanın yaradıcılığı monoqrafik şəkildə üzə çıxarılır.

Dissertasiya işinin əsas müddəaları müasir rus ədəbiyyatının tarixi üzrə ali təhsil məktəbləri üçün vəsaitlərin yaradılmasında istifadə oluna bilər. Aparılmış tədqiqat postsovet dövrü rus ədəbiyyatının maraqlı nümayəndələrindən birinin yaradıcılığı haqqında təsəvvürü xeyli genişləndirir. Tədqiqatın nəticələri sonrakı elmi-nəzəri və praktik xarakterli tədqiqatlar üçün əhəmiyyət kəsb edə bilər.

Tədqiqat işindəki material mühazirə kurslarının hazırlanmasında, ədəbiyyat nəzəriyyəsi, müasir rus ədəbiyyatı tarixi üzrə dərsliklər və dərs vəsaitlərinin yazılmasında, həmçinin praktik məşğələlərdə, ali və orta təhsil məktəblərində ədəbiyyat üzrə xüsusi kurslarda istifadə oluna bilər.

**Müdafiəyə dissertasiyanın aşağıdakı müddəaları çıxarılır:**

1. L.Petruşevskayanın yaradıcılığında ən müxtəlif estetik sistemlərin bədii təcrübəsinin, naturalizm, simvolizm, romantizm, realizm, postmudernizmin ayrı-ayrı üsulları və vasitələrinin yaradıcı şəkildə yenidən dərki və onların sintezi baş verir. Bu, tərəfimizdən nəzərdən keçirilmiş əsərlərin bədii strukturunun, janr xüsusiyyətlərindən tutmuş təhkiyə özəlliyinə qədər, bütün səviyyələrində üzə çıxır.

2. Qəhrəmanların, əksər hallarda xanım qəhrəmanların, yazıçının onların dünya ilə qarşılıqlı əlaqələrində disharmoniyasının göstərilməsi qəribə, absurd forma alır. Onlar yuxu və gerçəklik, fantastika və reallıq, həyat və ölüm arasında sərhədləri görmürlər. Petruşevskayanın poetikasında ön plana real və qeyri-reallıq arasında əlaqə, ömür yolunun özünəməxsus metaforası kimi təqdim edilən bir dünyadan digərinə keçid problemi çıxarılır.

3. Gerçəkliyin harmoniyalaşdırılmasına meyllilik Petruşevskayanın həm nəsr, həm də şeirlərində nağıl, nağıl mənbəyinə müraciətdə büruzə olunur. Bu onun tərəfindən yaradılan bədii aləmin, onun mənimsənilməsinin ayrılmaz tərkib hissəsi, özü tərəfindən yaradılmış gündəlik həyat poetikası göstəriciləri çərçivəsində yeni bədii reallığın modelləşdirilməsi üsuludur.

4. Qəhrəmanların həyatının zahiri şərtlərinin minimallığı, onların zaman və məkan çərçivəsində qapalılığı gündəlik həyatın dar çərçivələrini, sosial aləmin məhdudluğunu və yeknəsəkliyini, qərəmanların seçim və iradə nümayiş etdirmək imkanlarının məhdud olmasını təcəssüm etdirir. Lakin L.Petruşevskaya gündəlik həyatın hətta sərbəst və dağınıq parçalarında belə reallığa, qəhrəmanın taleyində əsas məqamlara diqqət çəkmək bacarığına malikdir. Bu da gündəlik reallığın hər bir parçasında insan həyatının geniş mənzərəsini açır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Slavyan Universitetinin müasir rus ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın nəticələri elmi nəşrlərdə və konfrans materialları məcmuələrində çap olunmuş 8 məqalə və tezislərdə əks olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə, 178 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin ümumi həcmi 137 səhifədir.

## TƏDQİQAT İŞİNİN MƏZMUNU

**Girişdə** mövzu seçimi və onun aktuallığı şərtləndirilir, onun predmeti, obyekti, məqsəd və vəzifələri müəyyən edilir, müasir ədəbiyyatşünaslıqda mövzunun öyrənilmə dərəcəsi səciyyələndirilir, tədqiqat metodları göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır, dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti vurğulanır, aprobasiya haqqında məlumat verilir.

**«L.Petruşevskayanın nəsrində gündəlik həyat poetikasının strukturyaradıcı elementləri»** adlı **birinci fəsildə** yazıçının poetika spesifikasının üzə çıxarılması baxımından nəzərdən keçirilən nəsr əsərləri diqqət mərkəzindədir.

**«Yolun başlanğıcı və üslub axtarışı»** adlı **birinci yarımfəsildə** mətbuatda ilk hekayələrinin peyda olduğu 1960-70-ci illərdən etibarən Petruşevskayanın yaradıcılığının başlanğıcı nəzərdən keçirilir. Artıq həmin vaxt yazıçı həyatın olduğu kimi, bütün anlaşılmaz və xoşagəlməyən

tərəflərilə tədqiqinə maraq göstərməyə başlayır. Onun qəhrəmanı adi, ortastatistik insan olur. Bu barədə istisnasız, bəzək-düzəksiz yazmaq meyli onun sonrakı əsərlərində inkişaf etdiriləcək üslub tərzini müəyyən edir. Lakin məhz bu «həyat həqiqəti»nə görə onun əsərləri «yenidənqurma» dövrünə qədər çap olunmur.

L.S.Petruşevskaya yaradıcılığı boyu bütün ənənəvi nəsr janrlarına müraciət edir: hekayə, povest, roman, ədəbi nağıl, avtobioqrafik nəsr. Lakin hər dəfə o, ənənəvi formanı dəyişərək ona yenilik və təkrarolunmaz özünəməxsusluq elementi əlavə edir. Bütün bunlar **«Nəsrin janr poetikası»** adlı **ikinci yarımfəsildə** tədqiqat predmeti olmuşdur. Burada Petruşevskaya tərəfindən yaradılmış müxtəlif nəsr əsərlərinin materialları əsasında onlarda adi sxemləri dağıdan janr-üslub dəyişməsi, həmçinin yeni mərhələdə yazıçının adı ilə bağlı olan rus ədəbiyyatının janr sisteminin yeniləşməsi yolları göstərilmişdir.

L.Petruşevskaya janrlara yeni ahəng verərək tez-tez formalar üzərində təcrübələr aparır və bununla da müasir nəsrin janr rəngarəngliyini zənginləşdirir. Belə ki, L.Petruşevskaya hekayə əsasında «hadisə», «monoloq», «əhvalat», «mahnılar», «ibrətli hekayə», «nağıllar» və s. kimi müəllif janr adları qazanan bir sıra əsərlər yaratmışdır. O eyni janr, eyni mövzudan olan əsərləri bir silsilədə birləşdirməyə meylli olmuşdur. Petruşevskayanın hekayələrinə novella başlangıcı – situasiyaların paradoksallığı, gözlənilməz sonluqlar, məzmunun ibrətamizliyi xasdır.

Ümumiyyətlə, Petruşevskayanın nəsri üslubuna görə sırf qadınsayağı hekayət formasına malikdir, buna baxmayaraq, onun əsərlərini tez-tez qadın nəsrinə aid etməkdən imtina edirlər. Bir çox qadın nasirlərin əsərlərində olduğu kimi, onun da kitablarında emosionallıq, məntiqsizlik, hekayətin xronoloji ardıcıllığının olmaması hökm sürür. Yazıçının əsərlərində bəhs edilən məişət toqquşmalarının həqiqiliyinə istiqamətlənmə güclüdür, bu toqquşmalarda baş qəhrəmanlar kimi qadın personajlar çıxış edir.

**Üçüncü yarımfəsil «Kiçik insan və həyat nəsri»** adlanır. Burada Petruşevskayanın necə öz «kiçik insanını» yaratmasından bəhs olunur. Bununla o, əsrin mövzusunu XX yüzilliyin rus ədəbiyyatına qaytarır və özünün, qadınsayağı, həyatla çarpışan «kiçik insan» tipini yaradır. Bunlar tənha analar, əyyaş qadınlar, fahişələr («Дочь Ксении», «Страна»), uşaqları tərəfindən atılmış tənha qocalar («Кто ответит») obrazlarıdır. Bu obrazlar onları əhatə edən məişətdə, gündəlik, adətən isə mənasız həyat girdabında əks olunurlar. Petruşevskaya nəsrə özünün daha böyük əsərlərində də müraciət edir («Время ночь»).

L.Petruşevskayanın nəsrində digər bir lay da vardır. Bu, baş verənlərin qeyri-real olmasıdır. Bəzi əsərlərdə bu, üstünlük təşkil edən xüsusiyyət, strukturyaradıcı elementdir ki, bu da onları mistik əsərlər sırasına aid etməyə imkan verir. Reallıq və qeyri-reallıq burada bir-birinə qarışaraq hadisələrin adi gedişatını pozur. Lakin qəhrəmanlar sirli hadisələrin izahını axtarmırlar, onlar bu bir-birini istisna edən məkanlarda tamamilə sərbəst hərəkət edir, hansı sərhədləri keçmələri barədə özlərinə sual vermirlər. Bu daha əyani şəkildə «Три путешествия, или Возможность мениппеи…» povestində göstərilmişdir. Burada köhnə janr yeni məzmunla tamamlanır.

**Dördüncü yarımfəsil «Janr poetikasının yenilənməsi»** adlanır. Burada söhbət o əsərlərdən gedir ki, onlarda yazıçı ənənəvi janr formalarının modifikasiyalarını yaradır, onları tamamilə yeniləyir və dəyişir. Bunlar ilk növbədə «Номер один, или В Садах других возможностей» romanıdır. Bu əsərin janr-üslub strukturunda bir araya sığışmayan formalar birləşir: qrotesk, etnoqrafik hekayət, fantastika, mistika və s.

Avtobioqrafik mövzular «Девятый том» kimi kitablarda maraqlı həllini tapır. Bu kitab məqalələr, müsahibələr, jurnal suallarına cavablardan, kənarlarda ssenari xarakterli qeydlərdən ibarətdir. Bütün bunlar birlikdə pazl prinsipilə özünəməxsus avtobioqrafik mənzərə yaradır. Rus klassiklərinin tez-tez müraciət etdiyi uşaqlıq illəri haqqında özünəməxsus povest yaratmaq cəhdi L.Petruşevskayanın «Маленькая девочка из "Метрополя"» kitabında müşahidə olunur.

Bu yarımfəsildə həmçinin «qorxulu», «heyvani nağıllar», «sehirli nağıllar» (böyüklər və bütün ailə üçün), verlibr üslubunda yazılmış şeirlər və poemalar («Карамзинодеревенский дневник») nəzərdən keçirilir, hansılar ki, bu janr formaları haqqında təəssüratları sındırır, oxucuya həqiqətə tuşlanmağa imkan yaradır, həmçinin onda yeni bədii düşüncə tərbiyə edir.

**«Bədii sistemlərin sintezi»** adlı **beşinci yarımfəsildə** Petruşevskayanın realistik poetika ilə postmodernist üsulların birləşdirilməsi kimi bədii metodun xüsusiyyəti təhlil edilir. Bu sintez bəzi hallarda L.Petruşevskayanın yaradıcılığı aid edilən «postrealizm» termini ilə müəyyən edilir. Postrealizm strategiyası xaoslu postmodernist dialoquna yaxın olur, lakin postmodernizmdən fərqli olaraq postrealizm obyektiv reallığı şübhə altına almır.

L.Petruşevskayanın nəsrində adətən «həyat həqiqətinin» sırf naturalist təsviri, məişətlik vardır ki, buna görə onu çox vaxt həyatın qara

tərəflərini yaratmaqda ittiham edirdilər. Bununla yanaşı, Petruşevskayanın nəsrinə həmçinin sürrealist cizgilər aiddir, orada absurdizm estetikasının bəzi elementləri istifadə olunur. Məhz müxtəlif növ bədii sistemlərin bir yerdə mövcudluğu Petruşevskayanın nəsr və dramaturgiyasının təkrarolunmaz özünəməxsusluğunun əsasını təşkil edir.

Dissertasiyanın **ikinci fəsli – «L.Petruşevskayanın dramaturgiyasında gündəlik həyat poetikasının ifadə forması»** – yazıçının dram əsərlərinin təhlilinə həsr olunmuşdur. Bu fəsil həmçinin beş yarımfəsildən ibarətdir.

**«Ənənələrə arxalanma»** adlı **birinci yarımfəsildə** Petruşevskayanın pyeslərinin əvvəlki rus dramaturgiyası ilə varislik əlaqəsi nəzərə çarpır. «Kiçik insan» mövzusu, realizmin simvolizmlə birləşməsi, impressionizm, hər pyesdə bir çox gizli mənaları izah edən «ayrı musiqi» səslənməsini göstərən əsas mövzuların oxşarlığı, «münaqişənin yoxluğu» və ya onun səhnə bioqrafiyası ilə əvəz edilməsi – bütün bu Çexov ənənələri XX əsrin ortalarında A.Vampilov tərəfindən vasitə kimi istifadə olunmuşdur.

Vampilovdan sonra Çexov dramaturgiyasının bir çox prinsiplərini «yeni dalğa»nın nümayəndələri – A.Qalin, V.Slavkin, V.Merejko, L.Razumovskaya inkişaf etdirmişlər. L.Pertşuvskayanın dramaturgiyası ilə bu janr-üslub cərəyanı arasında bir çox ümumi cəhətlər vardır. Bu xüsusilə «Три девушки в голубом», «Сырая нога, или встреча друзей», «Уроки музыки» və digər pyeslərdə büruzə olunur.

Hazırda Çexov ənənələri bütün dünya ədəbiyyatında, xüsusilə də «absurd teatrı» müəlliflərinin – Bekket, İonesko və başqalarının əsərlərində nəzərə çarpır. Bəzən L.Petruşevskayanın dramaturgiyasını elə bu müəlliflərin yaradıcılığı ilə bağlayırlar. Burada ziddiyyət yoxdur, çünki bütün dünyada müasir teatr və dramaturgiyanın bir çox başlıca ideyaları başlanğıcını məhz Çexovdan götürür.

**«Sosial durğunluq dramı»** başlıqlı **ikinci yarımfəsildə** Petruşevskayanın dramaturgiyasının problematikasından bəhs olunur. İnsanın məişət həyatının çoxlu sayda müxtəlif problemləri sırasında o öz dramaturgiyasında qəhrəmanlarının sosial vəziyyətinin ən kəskin problemlərinə müraciət edir. Onun pyeslərinin mərkəzində sırf məişət toqquşmaları, bəlli real həyat hadisələri dayanır.

Petruşevskayanın pyeslərində adi dramatik struktur, personajların birmənalı qiymətləndirilməsi, gündəlik mübahisələr, mənfi və müsbət qəhrəmanların mənəvi bəhsi və s. yoxdur. Beləliklə, sosial gerçəklik Petruşevskaya tərəfindən yalnız ona məxsus tərzdə, tamamilə yeni nöqteyi-

nəzərdən, ona qədər heç kim tərəfindən irəli sürülməyən üsulla göstərilmişdir.

Çox vaxt Petruşevskayanın pyeslərinin adları onların problematikası, onların daxili məzmunu ilə təzad təşkil edir. Bu məzmunda qəhrəmanların mənəviyyatsızlığı, maddiliyə meylliliyi, bayağılığı üstünlük təşkil edir. Məsələn, «Любовь», «Анданте», «Квартира Коломбины», «Уроки музыки», «Три девушки в голубом» və s. Petruşevskayanın dramaturgiyasında uşaqlara çox diqqət yetirilir, onun əsərlərində yadda qalan uşaq obrazları yaradılmışdır («Три девушки в голубом», «Я болею за Швецию», «Уроки музыки», «Стакан воды»). Uşaq personajları ilə L.Petruşevskaya yaradıcılığının əsas motivlərindən biri bağlıdır – köməksizlik və mərhəmət motivi.

**«Dramaturji quruluşun prinsipləri»** adlı **üçüncü yarımfəsildə** yazıçının pyeslərində dramaturji münaqişənin quruluş xüsusiyyətləri nəzərdən keçirilir. Petruşevskayanın «maqnitofon dramaturgiyası»nda elə bir münaqişə növu formalaşmışdır ki, onu ümumi şəkildə qəhrəmanların bir-birilə deyil, hər birinin ayrılıqda həyatla qarşıdurması kimi izah etmək olar.

Buna görə də onun pyeslərində xarici təsir zəiflədilib. Bu pyeslərə açıq sonluqlar xasdır. Onlarda zaman və məkanın nisbiliyi, müxtəlif zaman laylarının uyğunluğu, həmçinin qəhrəmanların subyektiv qavraması ilə mürəkkəbləşən bir neçə bir-birinə zidd məkan obrazları vurğulanır. Gərəksizlik, artıqlıq Petruşevskayanın pyeslərini səciyyələndirir. Onun əsərlərində təsvir edilən parçalanmış, əlaqəsiz, tamamilə roman təsvirindən uzaq olan həyat mənzərəsi arxasında onların epikliyində ifadə olunan romanlıq gizlənir.

A.Vampilovun yaradıcılığında olduğu kimi L.Petruşevskayanın dramaturgiyasında simvolika çoxdur, zahiri naturalist yazının arxasında oyun gizlənir, pyeslərin intonasiyasında ironiya çox yer tutur. Petruşevskayanın nəsrində geniş təqdim olunan arxetiplər onun dramaturgiyasına da xasdır. Universallıq da bu dramaturgiyanın özəl əlamətlərindən biridir.

Petruşevskayanın dramaturgiyasında dil ifadə vasitələri xüsusi məna kəsb edir. **«Dil spesifikası»** adlı **dördüncü yarımfəsil** bu mövzuya həsr olunmuşdur. Petruşevskayanın pyeslərinin dili onun poetikasının əsas tərkib hissələrindən biridir. Dramaturgiyada bu janrın spesifikasına görə dil daha həlledici məna daşıyır. Petruşevskayanın fikrincə, «yalnız dialoqlar yazmaq imkanı» ibrətamizlikdən, nəsihətlikdən yan keçməyə, müəllifin kənarlaşmasına kömək edir.

L.Petruşevskayanın dramaturgiyasında sözlərin yerli-yerində veril-

məsi təəccübləndirir. Onun qəhrəmanları elə onun özünün bir çox müasirləri kimi danışırlar, sanki onların danışığı küçədə dinlənilib və yazılıb. Onun pyeslərində adi, təmtəraqsız nitq səslənir. Petruşevskayanın pyeslərində apardığı dil eksperimentləri xüsusi maraq oyadır. Məsələn, «Анданте» pyesində müasir insanların xarici sözlərə meylliliyi rişxənd edilir. Müəllif dialoqa tamamilə mənasız, uydurma sözləri əlavə edir: «бескайты», «метицы», «пулы» və s.

Dramın dili çoxfunksiyalılığına görə fərqlənir, Petruşevskayanın yaradıcılığında isə bu, taam əhatəli bir rol oynayır. Onun hətta ən qısa pyeslərinin, xüsusilə də «Стакан воды», «Анданте», «Любовь» və digər pyeslərin süjetini ifadə etmək çətindir. Çünki burada ya tövbə monoloqu, ya deyişmə verilir, adətən isə danışanlar bir-birini eşitmirlər. Lakin tərəflərin dediklərindən münaqişənin məğzini, dramaturji hərəkəti, insan xarakterlərini və taleyini başa düşməyə imkan verən mənzərə yaranır. Bu talelər fərdiliyinə baxmayaraq, müasir insanların çox hissəsi üçün tipikdir.

**«Postmodernist estetika»** adlanan **beşinci yarımfəsildə** XX əsrin sonu rus və dünya ədəbiyyatında postmodernist yazının qısa xülasəsi verilir və bu kontekstdə Petruşevskayanın pyeslərində ifadə olunan postmudernist estetikaya münasibəti nəzərdən keçirilir. Pyeslərin təhlili belə qənaətə gətirib çıxarır ki, Petruşevskayanın poetikası o qədər universal və əhatəlidir ki, onu konkret vahid sistemə, realizmə və ya postmodernizmə aid etmək çətindir. Çox güman ki, o, həm dramaturgiya, həm də nəsrdə postrealist prinsiplərinə, özündə realizm və modernizmi birləşdirən yeni cərəyana üstünlük verir.

Petruşevskayanın dramaturgiya yaradıcılığı özündə dahi rus klassikasını ehtiva edir. Eyni zamanda onun poetikasında Qərb nümunələrinə, müasir dünya teatrına meyllilik açıq sezilir. Bütün bunlar onun pyeslərində təkrarolunmaz, orijinal dünya mənzərəsinə çevrilmişdir. Bu mənzərənin yaradılmasında yazıçı həyatın həm realistik, həm də modernist təsvir vasitələrindən istifadə edir.

L.Petruşevskayanın yaradıcılığında postmodernizmdən danışarkən etiraf etmək lazımdır ki, onun bir sıra pyesləri, sözsüz ki, öz estetikasına görə realistlikdən daha çox postmiuodernistdir. Bu planda «Мужская зона», «Опять двадцать пять», «Сцена отравления Моцарта» və digərləri kimi pyesləri misal gətirmək olar. Lakin onun digər pyesləri daha çox ənənəvi realizm estetikasında yazılmışdır, buna baxmayaraq, onlarda modernizmin bir sıra elementlərini müşahidə etmək olar.

Dissertasiyanın **nəticəsində** tədqiqatın yekunları göstərilir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalələrdə əks olunmuşdur:**

1. Проза и драматургия Людмилы Петрушевской // Beynəlxalq elmi-nəzəri "Dil və ədəbiyyat" jurnalı. Bakı: BDU, 2009, №3 (69), s.190-192.

2. Драматургические произведения Л.Петрушевской // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Mütərcim, 2010, №1, s.203-206.

3. Особенности воплощения архетипов в творчестве Л. Петрушевской // Beynəlxalq elmi-nəzəri "Dil və ədəbiyyat" jurnalı. Bakı: BDU, 2010, №5 (76), s. 188-190.

4. О принципах драматургии Л.Петрушевской // Gənc alimlər və doktorantların XIV Respublika konfransının materialları. Bakı, 2010, s.206-207.

5. Многообразие жанровых форм в прозе Людмилы Петрушевской // Научно-педагогический журнал «Вести БДПУ». Серия 1. Минск, 2011, № 2 (68), с. 61-63.

6. Формирование поэтики повседневности в творчестве Л.С.Петрушевской // Диалог языков и культур СНГ и ШОС в XXI веке. Сборник материалов VI Международного форума. Баку, 8-11 ноября 2010 года. Часть II. Москва: ИПК МГЛУ «Рема», 2011, с. 109-115.

7. О роли архетипов в творчестве Л.С.Петрушевской // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı: Mütərcim, 2012, №3, s.160-163.

8. В поисках стиля // II Гуманитарные иследования: Астраханский Государственный Университет, Астрахань, 2013, №1 (45), с. 51-56.

**Mustafayeva Maral Ramazan**

# THE POETICS OF DAILY LIFE IN THE LYUDMILA PETRUSHEVSKAYA'S OEUVRE

## SUMMARY

The thesis consists of an introduction, two chapters, summary and the List of References.

The author substantiates the relevance and importance of the theme and determines the subject and topic of the research along with research objectives. The work also defines the level of available knowledge on the topic, reveals the scientific novelty as well as the theoretical and practical importance of the Thesis and contains the approbation of its main provisions.

The first chapter – **"The Structure-forming elements of the daily life poetics in the prose of L. Petrushevskaya"** – focuses on the prose works of the Authoress, the poetics of which (poetics of daily life) the Thesis's writer tries to reveal. The Chapter consists of five sub-chapters that in a detailed manner analyze the beginning of the journey in the poetry and the search for a style of her own; genre poetry; the image of a "small man" and life prose along with the renewal of genre poetry and synthesis of literary systems in the creation of L. Petrushevskaya.

The second chapter – **"Form of expression of daily life poetics in the dramaturgy of L. Petrushevskaya"** – analyzes the dramaturgy of L.Petrushevskaya in the main. This chapter too consists of five sub – chapters that consider the issues of continuity relation between the plays of the Authoress and preceding Russian dramaturgy. These sub – chapters also deal with the problematics of her plays defined as "the drama of social stagnation" as well as with the peculiarities of conflict formation and the specifity of Petrushevskaya's dramaturgy and postmodern elements of the poetics of her dramaturgical works.

The **Summary** section summarizes the results of the research.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI SLAVYAN UNIVERSİTETİ

*Əlyazması hüququnda*

**MARAL RAMAZAN QIZI MUSTAFAYEVA**

# LÜDMİLA PETRUŞEVSKAYANIN YARADICILIĞINDA GÜNDƏLİK HƏYAT POETİKASI

**5718.01 – Дцнйа ядябиййаты (Rус ядябиййаты)**

**Филолоэийа елмляри цзря фялсяфя доктору елми дяряъяси алмаг цчцн тягдим олунмуш диссертасийасынын**

**А В Т О Р Е Ф Е Р А Т Ы**

**БАКЫ – 2013**